**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRİ**

**ƏMR**

№ 3-29/3-2-673F/2024

"08" oktyabr 2024 il

Bakı şəhəri

**Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika Elmi Konfransının (NASCO XXVII) keçirilməsi barədə**

Doktorantların və gənc tədqiqatçıların apardığı elmi tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaq məqsədilə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 5.5.10-cu bəndini rəhbər tutaraq **əmr edirəm:**

1. Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika elmi konfransı 2024-cü il 10-11 dekabr tarixlərində Sumqayıt Dövlət Universitetində keçirilsin, konfrans "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilsin.

2. "Konfransın Təşkilat komitəsinin tərkibi" və "Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika elmi konfransının Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Ali təhsil müəssisələrinin rektorları və elmi-tədqiqat institutlarının direktorları doktorantların və gənc tədqiqatçıların məruzə və tezislərini 2024-cü il 10 noyabr tarixinədək Əlavə 2-də qeyd edilən qaydada Sumqayıt Dövlət Universitetinə təqdim edilməsini təmin etsinlər.

4. Sumqayıt Dövlət Universiteti (Rüfət Əzizov) konfransın yüksək səviyyədə eçirilməsi üçün lazımi şərait yaratsın, konfransın proqram və materiallarının nəşr dilməsini və konfransın nəticələri barədə Elm və Təhsil Nazirliyinə hesabatın təqdim lunmasını təmin etsin.

5. Elm və alı təhsil sıyasətı şöbəsi (Turxan Süleyman) və Azərbaycan Respublikasının Təhsil İnstitutu (Elnur Əliyev) konfransın keçirilməsi ilə əlaqədar lazımi dəstək göstərsinlər.

6. Maliyyə şöbəsi (Rauf Orucov), Təhsilin iqtisadiyyatı şöbəsi (İlqar Bayramlı) və Əsaslı Tikinti və Təchizat İdarəsi (Valeh Mirzalıyev) konfransın keçirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsini təmin etsinlər.

7. Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsi (Rəşad Xanlarov) əmrin çoxaldılıb ali təhsil müəssisələrinə və elmi-tədqiqat institutlarına göndərilməsini təmin etsin.

8. İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi (Səbuhi Rzayev) bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini və "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

9. Əmrin icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə edilsin.

Emin Əmrullayev

AZƏRBAYCAN RESPUBLİKASI * ELM və TƏHSİL NAZİRLİYİ *
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

...SLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI * ELM və TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

Azərbaycan Respublikası elm və təhsil nazirinin 08.10.24 tarixli 3-29/3-673F/2024 nömrəli

əmri ilə təsdiq edilmişdir.

Əlavə 1

**Doktorantların və gənc tədqiqatçıların**

**XXVII Respublika Elmi Konfransının (NASCO XXVII)**

**TƏŞKİLAT KOMİTƏSİ**

| | |
|---|---|
| Emin Əmrullayev (sədr) | Azərbaycan Respublikasının elm və təhsil naziri |
| İdris İsayev | Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini |
| Mətin Kərimli | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri |
| Rüfət Əzizov (sədr müavini) | Sumqayıt Dövlət Universitetinin rektoru |
| Ülkər Səttarova | Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru |
| Elnur Əliyev | Nazirin müşaviri, Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru vəzifəsinin müvəqqəti icra edən |
| Nicat Məmmədli | Nazirin müşaviri |
| Azər Abızadə | Nazirin müşaviri |
| Turxan Süleyman | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri |
| Rauf Orucov | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri |
| Səbuhi Rzayev | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri |
| Afət Sadıqova (eimi katib) | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin baş məsləhətçisi |
| Elşad Abdullayev | Sumqayıt Dövlət Universitetinin Elm və İnnovasiyalar üzrə prorektoru |
| Könül Abaslı | Sumqayıt Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru |

| | |
|---|---|
| Elmar Xəlilov | Sumqayıt Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru |
| Rza Məmmədov | Sumqayıt Dövlət Universitetinin rektorunun müşaviri |
| Samir Orucov | Sumqayıt Dövlət Universitetinin Magistratura, doktorantura və elm şöbəsinin müdiri |
| Tahir Məmmədli | Sumqayıt Dövlət Universitetinin Texniki təchizat departamentinin direktoru |

AZƏRBAYCAN RESPUBLİKASI * ELM və TƏHSİL NAZİRLİYİ * VƏTƏNDAŞLARA XİDMƏT və SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

ƏSLİ İLƏ EYNİDİR

Azərbaycan Respublikası elm və təhsil nazirinin 08.10.24 tarixli 3-29/3-2-673 P/2024 nömrəli əmri ilə təsdiq edilmişdir

Əlavə 2

**Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika Elmi Konfransının (NASCO XXVII) Əsasnaməsi**

## 1. Ümumi müddəalar

1.1. Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika elmi konfransı (bundan sonra – Konfrans) gəncləri elmi yaradıcılığa fəal surətdə cəlb etmək və onların apardıqları elmi tədqiqatların nəticələrinin müzakirəsini təşkil etmək məqsədilə keçirilir.

1.2. Konfransın istiqamətləri aşağıdakılardır:

1.2.1. Təbiət elmləri (riyaziyyat, fizika, mexanika, kimya, biologiya, biotexnologiya, neft-kimya, enerji resursları, tibb, ətraf mühit, yer haqqında elmlər, coğrafiya və s.);

1.2.2. İKT və mühəndislik (elektrik, qazma, elektronika, robototexnika, avtomatlaşdırma və inşaat mühəndisliyi, maşınqayırma, süni intellekt və data elmi, kibertəhlükəsizlik və digər kompüter elmləri və s.);

1.2.3. Sosial-humanitar elmlər (təhsil, sosiologiya, politologiya, kulturologiya, hüquq, tarix, dilçilik, ədəbiyyatşünaslıq, psixologiya, pedaqogika, metodika, iqtisadiyyat, turizm və s.).

1.3. Konfransın keçirilməsi üçün Elm və Təhsil Nazirliyi tərəfindən Təşkilat komitəsi yaradılır (sədr, sədr müavini, elmi katib və üzvlər).

## 2. Konfransa müraciət prosesi

2.1. Konfransın qaydaları və əsas tarixlərində hər hansı bir dəyişiklik konfransın Təşkilat komitəsi tərəfindən müəyyən edilir.

2.2. Müraciət edən hər kəs 2.1-ci bənddə qeyd edilən elanda və bu Əsasnamədə yerləşdirilən onlayn qeydiyyat formasını doldurmaqla öz tezislərini təqdim etməlidirlər. Formanı doldurmaq üçün keçid: (***nasco27@sdu.edu.az***)

2.3. Müraciətlər ilkin olaraq Təşkilat komitəsi tərəfindən 3, 4 və 5-ci bölmələrdə qeyd olunan tələblərə və qaydalara uyğun olaraq yoxlanılır. Müvafiq uyğunluq olduğu təqdirdə təqdim olunan tezislər konfransın Elm komitəsi tərəfindən qapalı dəyərləndirmə sistemi vasitəsi ilə dəyərləndiriləcəkdir (Tezislərin dəyərləndirilməsi.docx). Əgər müraciət keyfiyyət və yazı standartlarına cavab verirsə "Qəbul", əgər müəyyən məzmun və ya texniki düzəlişlərə ehtiyac varsa, "Düzəliş", konfransın standartlarına cavab vermirsə, "İmtina" cavabı gələcəkdir. Qəbul olunan tezislərə elan olunmuş tarixə qədər "Qəbul məktubu" göndəriləcəkdir. "Düzəliş" statusu alan tezislərin müəlliflərinə 1 həftə düzəliş üçün vaxt veriləcəkdir. Müvafiq düzəlişlərdən sonra müraciətçi yeni faylı qeyd olunan elektron poçt ünvanına (***nasco27@sdu.edu.az***) göndərməlidir. Əgər qeyd edilən vaxta qədər göndərilməzsə, həmin şəxsə "İmtina" veriləcəkdir. Qeyd etmək lazımdır ki, müraciət edənlərə düzəliş üçün yalnız bir dəfə şans veriləcəkdir. Düzəlişdən sonra tezisə Elm komitəsi tərəfindən yenidən baxılacaq. Əgər Elm komitəsinin rəyləri nəzərə alınıbsa, həmin şəxsə "Qəbul", rəylər nəzərə alınmayıbsa, "İmtina" cavabı veriləcəkdir.

## 3. Konfrans iştirakçıları

3.1. Konfransda təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan respublikada və xaricdə ali təhsil müəssisələrində və elmi tədqiqat institutlarında fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlar və dissertantlar, doktorantura/dissertantura təhsilini bitirmiş müdafiə ərəfəsində olan şəxslər, həmçinin fəlsəfə doktoru elmi dərəcəsi almış 35 yaşa qədər gənc tədqiqatçılar iştirak edə bilərlər.

3.2. Hər iştirakçı yalnız bir məruzə təqdim edə bilər. Bir tezisin bir neçə müəllifi ola bilər. Lakin müraciət zamanı bütün müəlliflər 3.1-ci bənddə qeyd olunan tələblərə uyğun olmalıdırlar. Müraciət forması doldurularkən bütün müəlliflərin CV-si eyni sənəddə təqdim olunmalıdır.

## 4. Məruzələrin tərtib olunma qaydaları

4.1. Konfransa təqdim edilən məruzədə problemin aktuallığı və müəllif tərəfindən aparılmış tədqiqatın nəticələri əks olunmalı, alınmış nəticələrin istifadəsinə (tətbiqinə) dair təkliflər verilməlidir. Məruzələrin seçimində üstünlük yaradıcılıq qabiliyyəti və əsaslandırılmış yeni ideyaları olan müəlliflərə verilir.

4.2. Konfransa təqdim olunan məruzə aşağıdakı tələblərə uyğun tərtib edilir:

4.2.1. Məruzələr Azərbaycan və ya ingilis dilində yazılır;

4.2.2. Konfransa daha əvvəl başqa hər hansı bir yerdə nəşr və məruzə olunmamış orjinal tezislər göndərilməlidir.

4.2.3. Konfransa empirik tədqiqat metodlarına əsaslanan araşdırmaların nəticələrini aydın bir şəkildə ifadə edən, dünya və ölkə əhəmiyyətli mövzularda tezislər göndərilməlidir. Konfransın Təşkilat və Elm komitəsi tərəfindən yüksək keyfiyyətli hesab edilən tezisin mövzusunun məqalə variantının beynəlxalq elmi jurnallarda nəşrinə imkan yaradılacaqdır.

4.2.4. Göndəriləcək tezislər "doc", "docx" sonluqlu MS Office Word fayl formatında hazırlanacaq, səhifə ölçüləri isə sol kənar – 2.5 cm, sağ kənar 1.5 cm, alt və üst – 2.0 cm şəklində olmalıdır.

4.2.5. Təqdim olunacaq tezisin mətni minimum 3 maksimum 5 səhifə (başlıqlar, xülasələr və ədəbiyyat daxil olmaqla) olmalıdır.

4.2.6. Konfransa təqdim olunacaq tezisin yazıldığı dildən başqa iki dildə (Azərbaycan dilində yazılmış tezislərə ingilis və rus dillərində, ingilis dilində yazılmış tezislərə isə Azərbaycan və rus dillərində) xülasə və açar sözlər (hər iki dildə) olmalıdır. Xülasələrdən əvvəl həmin dildə tezisin başlığı Times New Roman 14 şrifti olmaqla, bütün hərfləri böyüklə, Bold, Center formatında yazılır. Onun altında tədqiqatçının soyadı, adı və atasının adı, onun altında isə müraciətçinin doktorantura/dissertantura təhsili aldığı müəssisənin adı yazılır. Xülasələr minimum 100, maksimum 300 söz olmaqla Times New Roman 10 şrift, sətir aralığı 1.15, justified formatında yazılır.

4.2.7. Tezisdə eyni zamanda tədqiqatçının ORCİD kodları yer almalıdır. ORCİD kodları haqqında ətraflı məlumat üçün bu linkə https://orcid.org/ müraciət edilə bilər. ORCİD kodları təhsil müəssisəsinin adından aşağıda qeyd olunmalıdır.

4.2.8. Tezisdə iki dildə (xülasələrin yazıldığı dildə) minimum 3, maksimum 5 sözdən ibarət açar sözləri yer almalı və xülasədən sonra da qeyd olunmalıdır.

4.2.9. Tezisin əsas mətn hissəsi Times New Roman 12 şrift, iki yana yaslanmış (Justified) 3-sətir aralığı - 1.15, paraqraf aralığı öncə və sonra 6 pt şəklində olmalıdır.

4.2.10. Cədvəl, şəkil və qrafiklərin daxili yazıları, başlıqları və alt şərhləri 1,0 aralıqlı sətirlə, Times New Roman 10 şrifti ilə, başlıqları isə yalnızca ilk hərfi böyük olmaqla 10 şriftlə sola yaslanmış (align left) bold yazılmalıdır.

4.2.11. Tezisdə istinadlar və ədəbiyyat siyahısı APA stilinə uyğun olaraq qeyd olunur. Yəni istinad cümlənin sonunda mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi göstərilir. İstinaddan sonra nöqtə qoyulur. Tezisdə istənilən sayda istinad göstərilməli və ədəbiyyatdan istifadə olunmalıdır.

4.2.12. Məruzədə istifadə edilmiş elmi ədəbiyyata istinad və mənbələr bu qaydada göstərilir:

**İstinadlara dair nümunə:**

- Tək müəllifli olduğu halda (Məmmədov, 2007), (Pretty, 1994).
- İki müəllifli olduğu halda - (Əliyev və Osmanov, 2014)., (Krugman & Stiglitz, 2010).
- Üç və beş müəllifli olduğu halda - əgər ilk dəfə istinad verilirsə - (Kernis, Cornell, Sun, Berry, and Harlow, 1993), təkrar istinad verildikdə isə (Kernis et., 1993).
- Altı və daha çox müəllifli olduqda isə - (Harris et al, 1996), (Məmmədov və b., 2019).
- Əgər istinad olunan bir təşkilat və ya dövlət qurumudursa, ilk istinadda olduğu kimi istinad olunur, sonrakı istinadlarda isə əgər çox bilinən bir qurumdursa, qısaltması qeyd olunur – ilk istinad (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2014), ikinci istinad (ARDSK, 2014).
- Əgər tezisdə birdən çox mənbəyə istinad verilmişdirsə, bunlar əlifba sırasına görə düzülməlidir və əsərlər nöqtəli vergül ilə bir birindən ayrılmalıdır. - (Akar, 2010; Çalışkan, 2008; Dinçer ve Kolaşin, 2009; Engin ve Demir, 2009; Tunç, 2007)
- Eyni soyada sahib olan müəllifləri qarışdırmamaq üçün adın ilk hərfi də istifadə olunur (E. Johnson, 2001; L. Johnson, 1998)

**Ədəbiyyatın siyahısının tərtibinə dair nümunə:**

Berndt, T.J. (1981a). Age changes and changes over time in prosocial intentions and behavior between friends. Developmental Psychology, 17, 408-416.

Berndt, T.J. (1981b). Effects of friendship on prosocial intentions and behavior. Child Development, 52, 636-643.

Berndt, T.J. (1999). Friends' influence on students' adjustment to school. Educational Psychologist, 34, 15-28.

Berndt, T.J. (2002). Friendship quality and social development. Current Directions in Psychological Science, 11, 7-10.

Berndt, T.J. and Keefe, K. (1995). Friends' influence on adolescents' adjustment to school. Child Development, 66, 1312-1329.

Harlow, H.F. (1983). Fundamentals for preparing psychology journal articles. Journal of Comparative and Physiological Psychology, 55, 893-896.

Kernis, M.H., Cornell, D.P., Sun, C.R., Berry, A., Harlow, T. and Bach, J.S. (1993). There's more to self-esteem than whether it is high or low: The importance of stability of self-esteem. Journal of Personality and Social Psychology, 65, 1190-1204.

Wegener, D.T. and Petty, R.E. (1994). Mood management across affective states: The hedonic contingency hypothesis. Journal of Personality and Social Psychology, 66, 1034-1048.

## 5. Plagiat

5.1. Onlayn qeydiyyat zamanı məruzə mətninin plagiatdan keçirilməsinə dair detallı arayış (mətnin məzmunu yer alan) müraciətçi tərəfindən təqdim edilir.

5.2. Plagiat faizi 25 %-dən artıq olmamalıdır. 25 %-dən artıq plagiat olduqda tezis qəbul edilmir.

## 6. Konfransın gedişatı

6.1. Konfransın işi bölmələr üzrə aparılır. Bölmələrə sədr və həmsədrlər rəhbərlik edirlər.

6.2. Tədqiqatçılar öz məruzələri ilə müvafiq bölmələrdə çıxış edirlər. Məruzəyə bir qayda olaraq, 10 dəqiqəyə qədər vaxt ayrılır. 8 dəqiqə çıxış, 2 dəqiqə isə sual-

cavab üçün verilir.

6.3. Məruzəçilər təqdimatla (ppt, pptx) çıxış edirlər. Təqdimatın əvvəlində mövzunun adı, məruzəçinin adı və soyadı qeyd edilməlidir. Təqdimatda əsas təqdim edilən mövzunun məqsədi, predmeti göstərilməlidir. Cümlələr qısa və aydın şəkildə verilməlidir. Əlavə fikirlər isə şifahi şəkildə bildirilməlidir. Təqdimata əlavə edilən şəkillər, videolar, musiqi təqdimatın mövzusuna uyğun olmalıdır. Sonda əsas fikir və nəticə göstərilməlidir.

6.4. Konfransda çıxış dili Azərbaycan dilidir.

6.5. Bölmələrdə çıxış edən tədqiqatçıların məruzələri sədr və həmsədrlər tərəfindən qiymətləndirilərək müvafiq qərarı "nəşrə tövsiyə edilir" və ya "nəşrə tövsiyə edilmir" qəbul edilir, qərar protokollaşdırılır. Protokol Təşkilat komitəsinə təqdim olunur.

6.6. Konfransda məruzə etməyən müraciətçilərin tezisləri heç bir halda konfransın materiallarında çap olunmayacaqdır.

## 7. Konfransın yekunu

7.1. Konfrans zamanı bölmə iclaslarında qəbul olunan materiallar toplu halında çap olunur.